Tədbirdə müvafiq mütəxəssislər gələcək bərbərlərin peşə bacarıqlarına yiyələnmə səviyyəsini qiymətləndiriblər. Bu prosesdən sonra təhsilalanlar 4 ay müddətində istehsalat təcrübəsi keçəcəklər. Cari ilin iyununda dövlət buraxılış imtahanından uğurla keçən şagirdlər vahid formalı dövlət sənədi – diplom ala biləcəklər.

Qeyd edək ki, "Bərbər" ixtisası üzrə kadr hazırlığı 18 nömrəli Bakı Peşə Liseyi ilə "Eldar-studio" şirkəti arasında imzalanmış birgə əməkdaşlıq müqaviləsinə əsasən, həmin şirkətin peşəkar mütəxəssislərinin iştirakı ilə aparılır. Təhsilalanlar ən müasir avadanlıqlarla təchiz olunmuş tədris emalatxanasında təcrübi bilik və bacarıqlara yiyələnirlər.